# Elçin Səlimli-65



Noyabrın 19-da Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda şair, publisist Elçin Səlimlinin 65 illik yubileyi münasibətilə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu Elçin Səlimlinin həyat və yaradıcılıq yolundan, gözəl insani keyfiyyətlərindən söz açıb, şairin təqdim olunan kitabları haqqında tədbir iştirakçılarına məlumat verib: "Mövlanə Cəlaləddin Rumi deyirdi ki, "Ya göründüyün kimi ol, ya olduğun kimi görün". Elçin Səlimli olduğu kimi görünən bir insandır. Onun, vətənə, doğma yurda bağlılığı qələmə aldığı poeziya nümunələrində əks olunur:

*Ürəyimdir burda hər dağ, hər qala,*
*Mən vurğunam hər yamaca, hər yala,*
*Başdan-başa qəlb oxşayır Neftçala,*
*Doğma kəndim, görüşünə gəlmişəm.*

Səlim Babullaoğlu yubilyara Azərbaycan Yazıçılar Birliyinin Fəxri diplomunu təqdim elədi.

Tədbirdə Elçin Səlimlinin "Görüşünə gəlmişəm" və "Şəhidliklə bitən ömür" kitabları iştirakçılara təqdim olunub. Müəllif qələmə aldığı "Görüşünə gəlmişəm" kitabı ilə tarixi və möhtəşəm qələbəmiz münasibətilə oxucuları bir daha təbrik edir, "Öncə Vətəndir!" şüarını ön plana çəkir. Kitabda toplanan şeirlərin hamısı qələbə müjdəlidir, heç vaxt öz ümidini itirməyən və bu şərəfli qələbənin gec-tez bizim olacağına köklənən şair, öz oxucularına da möhkəm inam hissi aşılayır, gələcəyə fəxrlə baxmağı tövsiyə edir. Müəllifin şeirlərində vətəndaşlıq qayəsi, torpağa bağlılıq, gənc nəslin tərbiyəsi, bu günümüzə, gələcəyimizə baxışları təsvir olunur.

Yubilyarın "Şəhidliklə bitən ömür" kitabının əsas süjet xəttini I Qarabağ savaşı və torpaqlarımızın azadlığı uğrunda gedən ölüm-qalım mübarizəsi təşkil edir. Bu döyüşlərdə öz canlarını fəda edərək şəhid olan igid oğul və qızlarımızın keçdiyi şərəfli döyüş yollarından bəhs edir, həmçinin onların qəhrəmanlıqlarını gözlərimiz önündə canlandırır.

Azərbaycan Yazıçılar Birliyi Sumqayıt Bölməsinin rəhbəri Gülnarə Cəmaləddin öz çıxışında Elçin Səlimlini Sumqayıtda - Əli Kərim adına Poeziya klubunun nəzdində fəaliyyət göstərən "Dəniz" Ədəbi Birliyindən tanıdığını, onun həmişə məhsuldar yaradıcılığı ilə seçildiyini söylədi.

Tədbirdə Güləmail Murad, Püstə Rəvan, Balayar Sadiq, Babulla Həsənov, Seyid Əfəndi, İsa Musayev, Nəriman Vəkilov, Aydın Xan, Könül Fikrətli, Gülnarə Nəsibova, Rafiq Akif, Fərqanə Qarabağlı və başqaları çıxış edərək, Elçin Səlimlini 65 illik yubileyi münasibətilə təbrik edib, onun həyat və yaradıcılığı haqqında ürək sözlərini söylədilər, uğurlar arzuladılar.

Yubiley mərasiminin sonunda çıxış edən Elçin Səlimli belə bir tədbiri təşkil etdiklərinə görə Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyinə, iştirakçılara təşəkkürünü bildirdi.

*Məlahət Qənbərova*